# ZƏNGİLAN RAYONUNDA ERMƏNİ VANDALİZMİ

Təqdim olunan məqalənin başlıca məqsədini Ermənistanın hərbi müdaxiləsi ilə Azərbaycan Respublikasının işğal olunmuş Zəngilan rayonu ərazisində azərbay-canlılara məxsus maddi-mədəniyyət abidələrinin dağıdılması, məhv edilməsi və mənimsənilməsi faktları, hərbi münaqişə nəticəsində rayonunun təbiətinə, onun ekologiyasına, iqtisadiyyatına vurulmuş ziyanın hərtərəfli və konkret tədqiqi təşkil edir.

Ümummilli liderimiz Heydər Əliyevin ".... 1988-ci ildən başlayaraq Ermənistanın Azərbaycana hərbi təcavüzü xalqımıza çox böyük zərbələr vurmuş, xal-qımız böyük itkilər vermişdir... Torpaqlarımızın bir qismi, o cümlədən Zəngilan rayonu da işğal olunubdur, indi də Ermənistan silahlı qüvvələrinin işğalı altın-dadır... Tarixən xalqımızın yaratdığı nə varsa erməni vandalizminə məruz qalıb-dağıdılıb, qarət edilib, yandırılıbdır... Tarixi yaddaşsızlıq və unutqanlıq xalqımıza baha başa gələ bilər... Azərbaycanlılara qarşı zaman-zaman törədilən ağır cinayət-ləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrin məkirli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək mühüm vəzifədir" müdirik kəlamı mövzusunun aktuallığını təşkil edir.

Qeyd edək ki, M.S.Qorbaçovun 1985-ci ildə SSRİ-də hakimiyyətə gəlməsi ilə erməni iddiaları bütün kəskinliyi ilə ortaya çıxdı. Bunu, Qorbaçovun müşaviri akademik A.Aqanbekyan 1987-ci ilin noyabrında "Humanite" qəzetində dərc edil-miş müsahibəsində açıq şəkildə bəyan etdi. O, müsahibəsində Dağlıq Qarabağın Ermənistana verilməsinin məqsədəuyğun olmasını və bu barədə dövlət başçısına təklif verdiyini bildirmişdi. 1988-ci ilin fevralından Dağlıq Qarabağ erməniləri Ermənistanla birlikdə Azərbaycana qarşı təzyiqini gücləndirdi. Həmin dövrdən Ermənistan və onunla vəhdətdə DQMV, sonralar isə burada təşkil edilmiş oyuncaq rejimə məxsus sənəd və materialların sayı daha da artır. SSRİ-nin dağılması və Ermənistanın müstəqilliyini elan etməsindən sonra Dağlıq Qarabağa iddialar yeni müstəviyə keçdi. Ermənistan Azərbaycana qarşı elan edilməmiş müharibədə Rusi-yanın yaxından köməyi ilə Dağlıq Qarabağ və onun ətrafında yeddi rayon işğal edildi [1].

Azərbaycanın Zəngilan rayonu bədnam ermənilərlə 157 km ərazidə həmsərhəddir və ona görə də 1988-1994-cü illər müharibəsində hadisələrin mərkəzində dayanmışdır. Mehri və Qafan rayonlarından, öz dədə-baba yurdlarından qovulan azərbaycanlılar ilk günlər Zəngilan rayonuna pənah gətirsələr də, təəssüflər olsun ki, burada yerləşdirilmədilər. 1989-cu ildə Mehri rayonunun Nüvədi kəndi Ermə-nistanın tərkibindən çıxıb Zəngilan rayonunun tərkibinə daxil olmuş və kommunal xidmətlər rayona aid edilmişdi. Təəssüflər olsun ki, Rəsmi Moskvanın diktəsi və Respublika rəhbərliyinin təkidi ilə kənd zorla boşaldılmışdır. Ermənistandan Zəngilan rayonuna tez-tez basqınlar olur, əhali qarət edilir, girov götürülür və ya öldürülürdü. Belə bir şəraitdə Zəngilan rayonunda Yerli Özünümüdafiə Batalyonu yaradıldı. Lakin yaradılan batalyonlarda qeyri peşəkarlıq mövcud idi və rayonun müdafiəsi pərakəndə halda həyata keçirilirdi. Xalqın apardığı mübarizə bəhrə vermədi və 1993-cü il oktyabrın 29-da Zəngilan rayonu Ermənistan Silahlı qüvvələri tərəfindən işğal edildi. Zəngilan rayonu erməni işğalçıları ilə mübarizədə 238 şəhid vermiş, 44 nəfər itkin düşmüş, 110 nəfər əlil olmuş, 200 – körpə valideynlərini itirmişdir. Zəngilan rayonundan 2 nəfər – Əsədov Əsəd Soltan oğlu və Nuriyev Elnur Eyvaz oğlu ən yüksək ada – Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşlər [5]. İşğal nəticəsində Zəngilan rayonunun 72 ümumtəhsil məktəbi, 46 uşaq bağçası, 39 mədəniyyət evi, 70 kitabxana, 9 muzey, 4 musiqi məktəbi, 19 klub, 64 səhiyyə və 42 rabitə obyekti, 47 məişət evi, 200 ticarət, 112 ictimai iaşə müəssisəsi, 42 sənaye, 15 kommunal obyekti, 145 inzibati bina, 10217 fərdi yaşayış evi, 31 kolxoz və digər çoxsaylı obyektlər bütün əmlakı və avadanlığı ilə birlikdə itirilmişdir. Dünyada ikinci, Avropada isə birinci yeri tutan 107 hektarlıq təbii çinarlığın, onlarca yeraltı və yerüstü sərvətlərin müvəqqəti itkisini də buraya əlavə etsək, düşmən təcavüzünün ağır nəticələri haqqında daha aydın təsəvvür etmək mümkün olar [5].

Ümummilli lider Heydər Əliyev çıxışlarından birində göstərir ki, "Zəngilan-da Azərbaycan xalqının milli mədəniyyətini əks etdirən tarixi abidələr var və bu-rada Azərbaycan xalqının həyatını əks etdirən tarixi hadisələr baş veribdir. Zən-gilanda keçmiş əsrlərdə də xalqımızın çox hörmətli, dəyərli insanları yaşayıblar, yaradıblar və beləliklə də Zəngilan həm öz təbiətinə görə, həm o torpaq üzərində yaşayan insanların qurduqlarına, yaratdıqlarına görə və bugünkü nəsillərə çatdır-dıqları irsə görə Azərbaycanın qiymətli bir diyarıdır, qiymətli bir hissəsidir" [11].

Öz qədim və zəngin maddi-mədəniyyət və tarixi abidələrinə görə dünyanın ən zəngin bölgələrindən biri sayılan Zəngilan rayonu Ermənistanın başlatdığı işğalçılıq siyasəti nəticəsində ərazilərini itirməklə yanaşı, həmin ərazilərdə olan tarix və mədəniyyət abidələrinin dağıdılması, yer üzündən silinməsi, erməni əhalisinin təbliğində istifadə edilməsi ilə də üzləşdi. Ümumiyyətlə, ermənilərin Zəngilan rayonun ərazilərində tarix və mədəniyyət abidələrinə qarşı təcavüzü bir neçə yolla həyata keçirilmişdir: Azərbaycan xalqına məxsus tarix və mədəniyyət abidələrinin özününküləşdirilməsi, yəni "erməniləşdirilməsi"; Azərbaycan xalqına məxsus tarix və mədəniyyət abidələrinin başqa xalqların mədəniyyətinə aid abidələr kimi təqdim edilməsi; Azərbaycan xalqına məxsus tarix və mədəniyyət abidələrinin dağıdılaraq yer üzündən silinməsi.

Ermənistanın Azərbaycan Respublikasının Zəngilan rayonuna qarşı həyata keçirdiyi hərbi təcavüz nəticəsində Azərbaycan xalqının çoxəsrlik tarixini, şərəfli keçmişini əks etdirən dünya, ölkə və yerli əhəmiyyətli tarix və mədəniyyət abidə-sini, dünya əhəmiyyətli arxeoloji abidə olan paleolit dövrünə aid mağara dü-şərgələri, qədim dövrlərə aid və insan sivilizasiyasını öyrənmək üçün indi də elmi cəhətdən aktuallığı ilə fərqlənən arxeoloji abidələri, həmçinin, alban abidələri, məscid kompleksləri, qədim qəbiristanlıqlar, türbələr, saraylar, qalalar, körpülər, qədim yaşayış məskənləri, arxeoloji abidələr və s. erməni işğalının qurbanı olmuş-dur. Qədim arxeoloji mədəniyyətin ən xarakterik arealı olan Zəngilan şəhərində ermənilər, misli görünməmiş vəhşiliklər törətmiş, şəhəri yerlə-yeksan etmişdilər.

İşğal zamanı Zəngilan rayonundan XIX əsrə aid Muşlan, Qırıq Muşlan, Malatkeşin və Zəngilan kəndlərində Məscid, Hacılılar kəndində körpü, dairəvi bürc (XIII əsr), XIII-XIV əsrlərə aid Şəhri-Şərifan, Ağca Aşıq yaşayış yeri, Qız qalası, Qəsr Qalası, XII-XIII əsrlərə aid Dairəvi Qüllə, Səkkizguşəli Türbə, Qız Qalası, Sərdabələr və digər tarixi mədəniyyət abidələri dağıdılmış, yandırılmış və ya qarət edilmişdir [10].

Qeyd edək ki, 1993-cü ildə Azərbaycan Respublikası Haaqa, 1997-ci ildə Paris Konvensiyalarına qoşulmuşdur. Bu konvensiyaların "Silahlı münaqişələr zamanı maddi dəyərlərin qorunması haqqında" və "Milli dəyərlərin qeyri-qanuni olaraq ölkəyə daxil olması və ölkədən çıxarılması qadağası" maddələrində bəşəri sivilizasiyanın maddi və mənəvi dəyərlərinin beynəlxalq hüquq prinsiplərinə görə qorunması nəzərdə tutulmuşdur. Lakin, erməni işğalçıları bunlara məhəl qoymadan zəbt etdikləri Azərbaycan Respublikası ərazilərində o cümlədən Zəngilan rayo-nunda, Azərbaycan xalqına məxsus milli maddi-mədəniyyət nümunələrini talan edir və qarət etdiklərini xarici ölkələrə apararaq erməni mədəniyyətinə məxsus nümunələr adı ilə satırlar. Qeyd etmək lazımdır ki, Ermənistan Respublikası tərə-findən başlanmış müharibə Azərbaycan Respublikasının işğal olunmuş Zəngilan rayonunun ərazisi və ətraf kəndlərin dağıdılmasına, eyni zamanda, ərazidə bitki və heyvanat aləminin məhv edilməsinə və bütövlükdə ekoloji tarazlığın pozulmasına səbəb olmuşdur.

İşğal olunmuş ərazilərdə yerləşən və oradan keçən su mənbələrinin ermə-nilər tərəfindən müxtəlif tullantılarla və zərərli maddələrlə çirkləndirilməsi davam edir. Araz çayının ekoloji vəziyyəti daha acınacaqlıdır. Belə ki, Ermənistan Respublikası tərəfindən Araz çayının uzun illər boyu çirkləndirilməsi suyun biokimyəvi və fiziki tərkibinin dəyişməsinə səbəb olmuşdur Bununla da, Ermənistan Respublikası Cənubi Qafqaz regionunda torpağın, atmosferin və ekoloji tarazlığın pozulmasına zəmin yaratmışdır.

Zəngilan rayonunun ərazilərində meşə örtüyünün kütləvi şəkildə məhv edilməsi, meşə torpaqlarının və eləcə də dağ çəmənliklərinin şumlanıb əkilməsi torpaq örtüyünün eroziyaya uğramasını sürətləndirməklə yanaşı, onun təbii bərpasını da mümükünsüz edir. İşğal olunmuş Zəngilan rayonunun aborigen əhalisinin əsrlər boyu formalaşdırdığı mədəni-ekoloji landşaftın komponentlərinə də ciddi maddi və mənəvi ziyan vurulmuş və bu sahədə işğaçı qüvvələr hazırda da "fəaliyyətlərini" davam etdirməkdədirlər. Zəngilan rayonu öz təbii ehtiyatlarına, iqlim-torpaq şərai-tinə və iqtisadi potensialına görə Azərbaycan iqtisadiyyatında mühüm əhəmiyyəti olan region sayılır.

Zəngilan rayonunda fəaliyyət göstərən sənaye sahələri respublika iqtisadiyyatında mühüm yer tuturdu. Burada yeyinti, yüngül, tikinti materialları sənaye sahələri üzrə müəssisələr daha çox inkişaf etmişdi. Göstərilən sahələrin bu regi-onda inkişafına güclü kənd təsərrüfatı xammalı və yerli təbii ehtiyatlar müsbət təsir göstərirdi. Ümumilikdə, 310 sənaye müəssisəsi Ermənistanın işğalında qalmışdır ki, bundan 18 sənaye müəssisəsi Zəngilan rayonunun payına düşürdü [11].

Azərbaycanın Zəngilan rayonunda sənaye əhəmiyyətli ehtiyatları (6,5 ton qızıl və 3 min ton mis) təsdiq edilmiş və istismara hazırlanmış Vejnəli qızıl yatağı, ehtiyatları 6618 min kub m. olan və üzlük daşı istehsalına yararlı Oxçuçay mər-mərləşmiş əhəngdaşı yatağı, təsdiq edilmiş ehtiyatları 129 mln. ton olan soda və "əhəng südü" istehsalına yararlı Zəngilan əhəngdaşı yatağı, qırmadaş və əhəng istehsalına yararlı Zəngilan əhəngdaşı (ehtiyatları 6024 min ton), Bartaz-I və Bartaz II porfirit (ümumi ehtiyatları 28943 min kub m.) yataqları, kərpic-kirəmit istehsalına yararlı Zəngilan gil ehtiyatları (1102 min kub m.), ehtiyatları 17367 min kub m. olan Zəngilan qum-çınqıl qarışığı yatağı işğal zonasında qalmışdır [12].

Zəngilan rayonunun ərazisi ermənilər tərəfindən işğal olunana qədər Bartaz-I porfirit yatağının bazasında dəyəri 2 milyon 650 min ABŞ dolları olan çınqıl-qırmadaş zavodu fəaliyyət göstərir və ətraf rayonları, Dəmir Yol İdarəsinin yol şəbəkəsini müvafiq materialla təmin edirdi. Rayonda fəaliyyət göstərən asfalt zavodunu xammalla təmin etmək məqsədilə bir neçə yataq açılmış və istismar işlərinə başlanmışdı. Lakin rayonun ermənilər tərəfindən işğalı ilə əlaqədar bütün bu işlər yarımçıq qalmış və çox qiymətli avadanlıqlar dağıntıya məruz qalmışdır.

Rayonda 107 hektar sahəsi olan Bəsticay Dövlət Təbiət qoruğu, 2,2 min hektar sahəsi olan Arazboyu yasaqlıq, 4 ədəd təbiət abidəsi, 10 min hektar xüsusi mühafizə olunan Araz palıdı meşəsi, 12864 hektar dövlət meşə fondu, 1200-dək büllur sulu təbii bulaqlar, 4 mənbədən ibarət olan Essentuki-4 suyuna tərkibcə uyğun gələn "Qotursu" mineral bulaqları, Sefidlər və Gəyəli kəndlərində turşsu mineral bulağı vardır.

Respublikanın ikinci əsas su mənbəyi sayılan Araz çayı ərazinin ən iri çayıdır. Ermənistan ərazisində yaranan çirkab sular mütəmadi olaraq 2,1 min kubgün təmizlənilmədən birbaşa Araz çayına axıdılır. Arazın çirkləndirilməsi Naxçıvan və Zəngilan rayonu ərazisi ilə Ermənistandan Araza axan qollar vasitəsilə həyata keçirilir. Araz çayının sol qolu Oxçuçay öz mənbəyini Zəngəzur dağ silsiləsindən götürür. Ermənistan Respublikası ərazisində yerləşən Qaçaran mis-molibden, Qafan mis filizsaflaşdırma kombinatlarının kimyəvi çirkli suları və Qafan-Qacaran şəhərlərinin, o cümlədən kəndlərin, xəstəxanaların, kənd təsərrüfatı obyektlərinin bioloji çirkli suları təmizlənmədən birbaşa Azərbaycan ərazisində Şərikan kəndinin qarşısında Oxçuçaya buraxılır ki, bu da çay hövzəsini "Ölü zonaya" çevirmişdir. Çay yatağının 43 km-i, su toplayıcı sahəsinin isə 455 kv.km-i Azərbaycan ərazisinə düşür ki, bu hissə daim çirklənməyə məruz qalır. Nəticədə çay suyunda əzəldən formalaşmış mikroflora – fauna da məhv olmuş, öz-özünü təmizləmə prosesi dayanmışdır [15].

Bəstiçay – Araz çayının sol qolu olmaqla öz mənbəyini Ermənistan Respub-likasından götürür. Çay Ermənistanın dağ kəndlərinin donuz fermalarının tullan-tıları ilə çirkləndirilir. Zəngilan rayonu ərazisində böyük vəsait hesabına altı yerdə təbiəti zənginləşdirmək və suvarmanı yaxşılaşdırmaq, balıqçılığı inkişaf etdirmək məqsədilə iri həcmli sututarlar inşa edilmişdi. Həmin sututarlar eni 30-150 m. Uzunluğu 60-100 m., dərinliyi 2-4 m. olmaqla Gilətaq, Çöpədərə, İsgəndərbəyli, Yeməzli, Keçikli, Həkərə kəndlərində yerləşdirilmişdi [15].

Azərbaycanın "Qırmızı kitab"ına salınmış qızıl xallı – farel balığı həmin göllərdə çox yaxşı inkişaf edirdi. Mühitin zənginliyi və suyun nisbətən soyuq olması bu balıqların kütləvi şəkildə artırılmasına imkan verirdi.

*(Davamı 5-ci səhifədə)*

# ZƏNGİLAN RAYONUNDA ERMƏNİ VANDALİZMİ

*(Əvvəli 3-cü səhifədə)*

Zəngilan Meşə Təsərrüfatı İdarəsinin mühafizəsində olan Zəngilan, Qubadlı və Cəbrayıl rayonlarının dövlət meşələrinin ümumi sahəsi 30063 hektar idi. Zəngilan rayonunda dövlət meşə fondunun ümumi sahəsi 12864 hektar, o cümlədən meşə ilə örtülü sahə 9030 hektar, tala və açıqlıq sahə 38 hektar, cəmi meşə torpaq sahəsi 9454 hektar, qeyri-meşə torpaqları 3410 hektar idi. Qeyri-meşə torpaqlarının 5 hektarı şum, 9 hektarı biçənək, 958 hektarı örüş sahəsi, 3273 hektarı isə digər torpaqlar olmuşdur [16].

Zəngilan rayonunda dövlət meşə fondu və digər ərazilərdə 10 min hektar Araz palıdı meşələri dövlət tərəfindən xüsusi olaraq qorunurdu. Əvvəllər az məh-suldar olan bu meşələr 1992-1993-cü illərədək mühafizə olunduğu üçün xeyli bö-yümüş və sıx meşəliklər əmələ gətirmişdir.

Rayonda geniş yayılan bitkilərdən biri də şərq çinarıdır. Şərq çinarı ehtiyatı azalmaqda olan relikt növü olmaqla Zəngilan rayonunun Bəstiçay və Oxçuçay va-dilərində təbii halda bitir, digər sahələrdə də geniş yayılmışdır. Şərq çinarı Bəs-tiçay Dövlət təbiət qoruğunda mühafizə olunurdu.

Zəngilan rayonunda Hacallı kənd sovetinin Muğanlı kəndində diametri 50 sm, hündürlüyü 8 m, yaşı 250 il olan 1 ədəd dağdağan, Mincivan qəsəbəsində dia-metri 60 sm, hündürlüyü 20 m, yaşı 120 il olan 1 ədəd şərq çinarı, həmin qəsəbədə diametri 100 sm, hündürlüyü 30 m, yaşı 300 il olan 1 ədəd şərq çinarı, Ördəkli kənd sovetində Zəmiyeri adlanan sahədə diametri 60 sm, hündürlüyü 12 m, yaşı 160 il olan 1 ədəd palıd ağacı pasportlaşdırılaraq qorunurdu [7].

Zəngilan rayonu coğrafi mövqeyinə, torpaq və iqlim xüsusiyyətinə görə füsunkar gözəlliyə, zəngin təbiətə malikdir. Təsadüfi deyildir ki, Avropada birinci, dünyada ikinci təbii çinar meşəliyi məhz bu rayona nəsib olmuşdur və mühafizə olunması məqsədilə Kiçik Qafqazın cənub-qərb hissəsində Bəstiçayın vadisində Azərbaycan hökumətinin 4 iyul 1974-cü il tarixli qərarı ilə Bəstiçay Dövlət Təbiət Qoruğu yaradılmışdır [8].

Qoruğun ərazisi ilkin mərhələdə 117 hektar təsdiq olunmuşdu. Lakin sonralar qoruq ərazisi 10 hektar azaldılmış, 107 hektara endirilmişdir. Qoruğa məxsus olan 107 hektardan 100 hektarını meşə, 7 hektarını isə qumluqlar, daş yığınları təşkil edir. Qoruğun meşə ilə örtülü sahəsinin əsas ağac cinsi şərq çinarıdır. Dünyada mövcud olan çinarın 7 növündən biri olan şərq çinarı yalnız Azərbaycanda bitir. Şərq çinarının çoxsahəli əhəmiyyətini, dünyada az yayılma-sını, nadir bitki olmasını və son əsrlərdə xeyli azalmasını nəzərə alaraq onun adı Azərbaycanın "Qırmızı Kitab"ına daxil edilmişdir [9].

Bölgədəki Bəstiçay Dövlət Təbiət qoruğu sahəsinin 93,5%-ni çinar meşələri tutur. Onlar Bəstiçay və onun qolu Şıxavuzçayın dərəsində yerləşir. Burada həm təmiz, həm də, qarışıq çinar meşəliyi yayılmışdır. Qoruqdakı çinar ağaclarının orta yaşı 165 il, orta hündürlüyü 35 m, orta diametri isə 1 m-dir. Burada yaşı 1200-1500 ilə, hündürlüyü 50 m-ə, diametri 4 m-ə çatan çinar nümunələri də vardı. Şərq çinarı meşə ağaclarının nəhəngi hesab edilir. Bu ağac tez böyüməsi, nəhəng gövdəsi, geniş çətiri, çox oduncağı ilə şöhrət qazanmışdır. Çinardan xarrat və çilingər işlərində, parketdə, ipək toxuyan dəzgahların hissələrinin hazırlanmasında, musiqi alətlərində, gəmiqayırmada, mebel istehsalında, bəzək işlərində və s. isti-fadə edilir. Eyni zamanda Şərq çinarı yaşıllaşdırma işlərində, küçələrin, xiyaban-ların, bağ və parkların dekorasiyasında, yol ətrafının yaşıllaşdırılmasında geniş isti-fadə edilə bilən qiymətli ağacdır [10].

Çox təəssüf ki, belə bir qoruq ərazisi 1993-cü ildən erməni işğalçılarının əlindədir və onlar əsrlərin yadigarı olan çinar meşəsinə amansız divan tuturlar. Verilən məlumatlara görə, Zəngilan rayonu ərazisindəki Bəstiçay dövlət qoruğu sıradan çıxarılıb. Bu təbii çinar meşəliyi hissə-hissə İranın tikinti-sənaye komplekslərinə, mebel fabriklərinə satılıb. Ölkənin hərbi-sənaye komplekslərində istifadəsi nəzərdə tutulan 42 hektar sahənin ağacı (çinarı) xüsusi qurğulardan, kimyəvi yuyucu məhlullardan keçirilərək toz halına salınıb. Bundan ağır silahların və hərbi sursatların qablaşdırılmasında istifadə olunub. 1997-ci ildə isə Tehran valisinə biri 100 dollardan 70 çinar satılıb. 110 çinar çıxarılaraq, Sevan gölünün ətəklərinə, eləcə də İrəvan şəhəri ərazisinə daşınıb. Nəticədə 48 bulaq və kəhriz quruyub, torpaq isə eroziyaya uğrayıb [11].

1993-cü ildə Araz çayının sol sahilində Bəstiçay Dövlət Təbiət qoruğuna tabe olan Arazboyu yasaqlıq yaradılmışdı. Yasaqlığın yaradılmasında əsas məqsəd burada olan fauna və floranın qorunması, Arazın su balansının saxlanılması və biomüxtəlifliyin mühafizəsindən ibarət olmuşdur. İşğaldan qabaq burada mövcud olan heyvanların təxmini say uçotu aparılmış və məlum olmuşdur ki, burada 300 başadək çöl donuzu, 7 baş qonur ayı, 350 baş tülkü, 300 çaqqal, 15 baş canavar, 70 baş porsuq, 12 baş cüyür vardı. Quşlardan turac, qırqovul, kəklik, yaşılbaş ördək, bildirçin daha çox məskunlaşmışdı. Erməni işğalı ilə bağlı yasaqlığın fauna və florasına ciddi ziyan vurulmuşdur [12].

Zəngilan rayon Ekologiya və Təbii Sərvətlər İdarəsinin rəisi M.A.Qurbanovun verdiyi məlumatlarında işğal olunmuş ərazidə təbiətin ermənilər tərəfindən güclü ekoloji dağıntıya məruz qaldığı göstərilir.

Apardığımız tədqiqatlardan məlum olur ki, 1951-ci ildən istismara verilmiş Ermənistanın Qaçaran mis-molibden və Qafanın filizsaflaşdırma kombinatlarının tullantı sularının tərkibində ağır metallar, fenol, neft məhsulları və radioaktiv maddələr yol verilən qatılıq həddindən 1000 dəfələrlə çoxdur. Həmin sular dağlıq sahələrlə 32 km məsafədə borularla Qafan şəhərinin arxasından keçirilərək birbaşa Azərbaycan sərhədində Şərikan kəndi yaxınlığında Qafanın sənaye və kommunal çirkab suları ilə birlikdə Oxçuçaya tökülürdü. Nəticədə həmin bölgənin əhalisində müxtəlif infeksion xəstəliklər yaranmış, uşaq ölümü artmış, heyvandarlıq və bitkiçilik məhsullarında, mis və molibden normadan dəfələrlə artıq olduğu aşkarlanmışdır. 1989-cu ildən Zəngilan ictimaiyyəti və respublikanın ziyalılarının tələbi ilə rayonda bu tullantılara daim nəzarət edən Ekoloji Post, 1993-cü ildən isə Ekologiya və Təbiəti Mühafizə Komitəsi yaradıldı. Ciddi nəzarət nəticəsində çayda 3 il ərzində daimi çirklənmə olmamış, yaylım tullantıları ay ərzində bir neçə dəfəyədək azalmışdır. Lakin 1993-cü ildə Zəngilanın işğalından sonra nəzarətdən kənar qalmış həmin ərazi "ölü zona"ya çevrilmişdir. Sutəmizləyici qurğuların istismar müddətini artırmaq məqsədilə yığıntılar fasiləsiz olaraq Oxçuçaya bura-xılır, çay qara-boz lil axınına çevrilir və bu da Araz vasitəsi ilə bütün Azərbaycana qarşı uzunmüddətli təsirə malik olan böyük ekoloji terrordur [14].

Ermənilər nəinki həmin ərazilərdən qəddarcasına istifadə edir, hətta sərhəd boyu yasaqlıq ərazilərində tez-tez yanğınlar törədirlər. 2001-ci ilin noyabrında Təbriz şəhərinin Təbiəti Mühafizə İdarəsinin baş müdiri Bakıda olarkən iyul ayında Bəstiçay Dövlət Təbiət qoruğunun Arazboyu yasaqlığında ermənilərin güclü yanğın törətdiyini və yanğının iki ay davam etdiyini bildirmişdi. Onun sözlərinə görə, görünən əraziyə qədər bütün bitki örtüyü məhv edilmiş və bu vəziyyət 2-3 ildən bir təkrar olunur.

Azərbaycan Respublikası Zəngilan Rayon Meşə təsərrüfatı idarəsinin direktoru Ş. Şükürovun verdiyi məlumata görə, Zəngilan meşəçiliyinin Top meşə sahəsinin yararlı ağacları ermənilər tərəfindən tamamilə qırılıb daşınır. Həmin sahələrdə olan qoz ağacları bütünlüklə qırılıb yandırılıb. Verilən məlumata görə, meşə sahələrində hər il yanğın törədilir. 2002-ci ilin iyun ayının 10-da. ermənilər Bartaz və Vejnəli sahələrində olan ardıc meşələrində güclü yanğın törədiblər. Meşə Təsərrüfatı İdarəsinin inzibati binasını ermənilər tamamilə yandırıb, binanın ətrafında olan 2 hektara yaxın çoxillik qoz, çinar, şam ağaclarını qırıb-aparmışlar. Zən-gilanın Vejnəli qızıl yatağı isə talan edilməkdədir. Ermənilər həmçinin Zəngilanda serpentari (ilan zəhəri) laboratoriyası təşkil edərək zəhər istehsalı ilə də məşğul-durlar [15].

Təhlillərdən məlum olur ki, Zəngilan rayonunda olan Bəstiçay Dövlət Təbiət Qoruğu dünyada ikinci, Avropada birinci təbii çinar meşəsidir. Avropada analoqu olmayan bu nəhəng ağaclar ermənilər tərəfindən qəddarlıqla məhv edilir. Alınan məlumatlara görə, Bəstiçay qoruğu yerləşən Rəzdərə kəndində ermənilər mebel materialı hazırlayan sex açıb işlədirlər və ətrafda olan çinar, palıd, qoz ağaclarını tamamilə qırıb məhv edirlər. Qırılan ağacların izini itirmək üçün isə kökünə partlayıcı maddə qoyub dağıdır, sonra isə yandırır və yerini də əkirlər" [16].

Mötəbər mənbələrə əsaslanaraq deyə bilərik ki, 1996-cı ildə "Daşbaşı" və "Leşkar" meşələrində ermənilər yanğın törədiblər. Həmin ilin payızında "Leşkar" meşə sahəsində isə yararlı ağacları tam qırıb aparıblar. Leşkar" meşə sahəsində 1957-58-ci ildə 55 ha ərazidə qoz meşəsi salınmışdır, orada olan 40-50 illik qoz ağacları da ermənilər tərəfindən qırılaraq aparılmışdır... Zəngilan rayon Ekologiya və Təbii Sərvətlər İdarəsi əməkdaşlarının tərtib etdikləri aktda göstərilir: "Zəngilan rayonunda yoxa çıxmaq təhlükəsində olan, adı "Qırmızı Kitab"a düşmüş, Nazirlər Kabinetinin qərarı ilə xüsusi olaraq qorunmuş 10 min hektar Araz palıdının cavan meşələri və pöhrəlikləri 20-dək sərhədyanı kəndlər ətrafında yayılmışdı. Vaxtilə bizim tərəfimizdən qorunmuş həmin ərazidəki Araz palıdını orada müvəqqəti məskunlaşmış ermənilər ilboyu yanacaq kimi istifadə edirdilər. Nəzarətdən kənarda qalmış, dünyada yalnız bu ərazidə bitən endemik bir növün kütləvi doğranmasını ekoloji genosid kimi qiymətləndiririk [17].

Zəngilan rayon Ördəkli kənd sakini Seyfulla Mirhüseynovun dediklərinə görə, yerli əhali tərəfindən pir kimi tanınmış, Nazirlər Sovetinin 16 mart 1982-ci il tarixli 167 saylı qərarı ilə təbiət abidələri siyahısına daxil edilmiş, Ördəkli kəndinin "Zəmiyeri" adlanan ərazisində 80 sm diametrli, 12 m hündürlüyündə 160 yaşlı kökütə yaş tək palıdın-təbiət abidəsinin 25 oktyabr 1993-cü il tarixində ermənilər tərəfindən yandırıldığının şahidi olmuşdur [18].

Zəngilan rayon Ekologiya və Təbii Sərvətlər İdarəsinin məlumatında bildirilir ki, erməni yaraqlıları kiçik Qafqazın aşağı hissəsində, əsasən Zəngəzur silsiləsində Mehri, Zəngilan və Qubadlı rayonları ərazisində böyük ovçu dəstələri ilə dağ keçisi, cüyür, qaban və s. heyvanları kütləvi şəkildə qırırlar. Azərbaycanda öz tədqiqat fəaliyyətini genişləndirən Xarici Şirkətlər Zəngilan-Qubadlı zonasında bəbirin yaşadığını sübut etmişdir. Bəbir Azərbaycan faunasının nəsli kəsilməkdə olan nümayəndələrindəndir. Zəngəzur silsiləsində, Qarabağ yaylasında, Talış dağlarında cəmi 13-15 fərd yaşayır. Bəbir 1967-ci ildən qorunan növ elan edilmiş, 1989-cu ildən Azərbaycanın "Qırmızı Kitab"ına daxil edilmişdir. Qanunsuz ovlan-ma nəticəsində yem bazasının tükənməsi, yaşayış yerlərinin ermənilər tərəfindən dağıdılması, yandırılması Zəngilan dağlarında qalmış 2-3 fərd bəbiri məhv olmaq təhlükəsi qarşısında qoymuşdur [19].

Qazax 2 saylı Ərazi Ekologiya və Təbii Sərvətlər şöbəsinin müdiri Rəfail Quliyevin verdiyi məlumatlarda işğal olunmuş ərazilərdə aparılan müşahidələr zamanı təbiətin ermənilər tərəfindən güclü ekoloji dağıntıya məruz qaldığı göstərilir: Şöbənin xidməti ərazisində dövlət meşə fonduna daxil olan 45359 hektara yaxın meşə sahəsi vardır. Həmin meşələrin əksər hissəsi dağ meşələri qrupuna aid olmaqla Ermənistan Respublikası ilə sərhəddə yerləşir. Meşə fon-dunun 2224 ha ərazisi hazırda ermənilərin işğalı altındadır. Həmin meşə sahə-lərində Ermənistan Respublikasının hərbiçiləri yerləşdirilmişdir. Meşələrin mühafizəsi demək olar ki, "Meşə Mühafizəsi və Bərpası müəssisəsinin" nəzarətindən çıxmışdır. Hazırda qiymətli ağac növləri ilə zəngin olan həmin meşələr erməni işğalçıları tərəfindən vəhşicəsinə qırılıb talan edilir. Aparılan müşahidələrdən belə rəyə gəlmək olar ki, ağacların qırılması indi də davam edir. Ağaclar erməni işğalçıları və orada yaşayan erməni əhalisi tərəfindən qəddarcasına qırılaraq daşınır. Meşələrin qırılması nəticəsində həmin ərazidə torpaqlar eroziyaya uğramağa başlamış, mənbəyini həmin meşələrdən götürən bulaqlar qurumuş və içməli suya olan tələbat artmışdır [19].

Mənbələrə əsasən müəyyən olunur ki, tullantılar vasitəsilə tək çaylarımız deyil, torpaqlarımız da zəhərləndirilməkdədir. Belə ki, Ermənistan Respublikasının Təbiəti Mühafizə naziri Vardan Ayvazyanın sözlərinə görə, 2002-ci ildə 327,8 min ton tullantı yığılmışdır ki, bunlardan da 1,2 min tonu yüksək təhlükə dərəcəlidir. Öz növbəsində Azərbaycanda hökumət səviyyəsində dəfələrlə bildirilib ki, həmin tullantılar Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində bas-dırılır. Azərbaycan Respublikası Milli Məclisinin deputatı Gültəkin Hacıyevanın sözlərinə görə, Ermənistanın sənaye o, cümlədən Mesamor AES-dən olan radio-aktiv tullantıların işğal olunmuş ərazilərdə basdırılması haqda Azərbaycan tərəfdə kifayət qədər məlumatlar var [18].

***(Davamı var)***

NAZİM
Məmmədov

